NAXÇIVANIN DUZU, QIZI, QARPIZI...

Haça dağdan günəş qalxır, baxıram,
Yaylaqların sinəsinə qalxıram.
Tunc zirvələr sıx dumana bürünür,
Boz sürülər yamaclarda sürünür.
Gəlin gəzək, bu da yaxşı güzərdir,
Mələşsə də kərə qoyun, ağ quzu,
Məncə bundan daha xoşdur, gözəldir,
Naxçıvanın duzu, qızı, qarpızı.

Bura mənim öz yurdumdur, elimdir,
İlk baharın məxmər teli telimdir.
Xəzinədir qara torpaq sinəm tək,
Qaranquşlar nəğmə deyir gülərək,
Dad versə də arx üstündə arabir –
Pendir-çörək, yanında da qarpızı;
Ancaq bundan düzü min qat gözəldir
Naxçıvanın duzu, qızı, qarpızı.

Yayı burda olmusanmı, desənə –
Gün qalxanda günortanın yerinə?
Boz düzlərdə ilqım ləpə vuranda,
Xan çinarın kölgəsində bu anda
Bəd olmayır, əşi, aləm düzəldir –
Ağ ayrana sən qatanda sal buzu,
Bəs atalar necə deyib? – Gözəldir
Naxçıvanın duzu, qızı, qarpızı.

Qaş qaralıb hamı kəndə döndümü,
Üfüqdəki son şəfəqlər söndümü –
Yanmır zəif işartılı lampalar,
İndi burda min kəhkəşan nuru var,
Əməlimiz min qığılcım közərdir,
Eşqimizlə yanır yerin ulduzu.
Ancaq bundan sanmayaq az gözəldir,
Naxçıvanın duzu, qızı, qarpızı!..

Dilim dillər tacıdır

ANA DİLİM

Dilim, –
su kimi büllur,
bal kimi şirindir
Elim, –
Vətən adlı
ilk sevgilimdir.
Mən elimin
ürəyi min bir nəğməli oğluyam.
Ürəyimdən bir səs keçir:
– Əqidəmdə doğruyam!..
Dilim, –
dillər tacı olsun deyirəm.
Öz dilini sevməyənlər,
lal olub, yerə girsin,
bir kəlmə söz möhtacı olsun, deyirəm.
El mənim,
Mən də elin.
Qəlbimdəki hər telin,
Səsi sazımda gülür.
Dilim, –
bir dağ çeşməsidir,
ürəyimdən dodağıma süzülür...
O çeşmənin gözünü
Gözüm qədər sevirəm.
Onun hər damlasını,
özüm qədər sevirəm.
Çınqıllı daşlarını,
bir mirvari sanıb mən,
Kaş boynuma düzəydim,
can Vətən!..

Mən qürurumu
qürurlara
qürur saya bilərəm.
Körpə bir uşaq
Beşikdən baş qaldırıb
"Ana" – desə,
Onu bağrıma basıb gülərəm.
Çünki o, öz dilimdir,
Ana dilim.
Pərvaz et hər yana, dilim!
mən qəlbi
qəlbimdə döyünənləri,
Mənim kimi
öz millətiylə öyünənləri,
Dilimi sevənləri sevirəm.
Hər kim nə deyir-desin,
elimi sevənləri sevirəm.
O el, –
anadan adsız doğulub,
ada-şöhrətə çatdığım,
ilk şərimi yaratdığım
Azərbaycan torpağıdır!
O dil, –
Şərqin
Min bir nəğməli dodağıdır.
Dodaq dedim, –
O, ürək tərcümanıdır.
ürəksizsə nəğmə olmaz.
Dilim, –
Nərgiz gülü kimidir,
Boranı da düşsə solmaz.
Çünki bu dil,
Baharıstan torpağımda,
atmış rişə.

Bu dil, –
O vaxt məhv olar ki,
Dünya qopa, Günəş düşə.

Yoxsa heç bir saxta qürur,
qürurumа düşməz yaxın.
Nəğmə deyin axın-axın!..
Bu nəğmələr
ürəklərə axıb dolsun.
Bizim könül nəğməmizsə,
"Azərbaycan himni" olsun!..

ANA SƏSİ

Gün batdı, şər qarışdı, yağdı qar,
Gör necə də ələndi.
Sahil boyu ucalan buruqlar
Ağ geyib cərgələndi...
Xəzri dənizdə yatdı... dəniz lal,
Sükut qondu hər yana.
Geyinib çıxdı evdən başda şal
On uşaqlı bir ana.
Televizor önündə uşaqlar
Durub baxdı, ha baxdı.
– Bəs niyə çıxmır anam, nə sirr var.
Gör gedəli havaxtdı!
Zilləyərək gözünü sonbeşik
Bir tərəfdə durdu tək.
Nə sakitdir bu axşam ev-eşik,
Ana çıxış edəcək...
Birinə söz verildi, yox, bu da,
Yox, bu da anam deyil.
O, işləyir deyəsən buruqda,
Orden alıbdır bu il.
Çıxdı başqa bir qadın, o kimdir?
Əynində ağ xalat var.
Körpələr tez tanıdı, həkimdi,
Əllərində həyat var.
Çıxdı iki gəlin də dalbadal,
Biri xalça toxudu.

Biri də ağ alnında qara xal,
Hind mahnısı oxudu.
Birdən göründü ana, can ana,
Ekrana baxdı gözlər.

Axdı bütün dalğalar hər yana,
Uçdu qanadlı sözlər.
Bayaqdan sükut qonan otağa
Səs-küy saldı körpələr.
– Ay uşaqlar, keçməyin qabağa,
Axı, anamız görər.
Ana min-min ekrana saldı səs,
Ağ günündən danışdı.
Hər sözü, hər istəyi müqəddəs...
Bu səs bizə tanışdı...
Bu səs "atom" qışqıran düşmənin
Cır səsini batırdı.
Bu səs, layla səsidir Vətənin,
Körpələri yatırdı.
Bayırdasa yağdı qar, yağdı qar,
Gör necə də ələndi,
Sahil boyu ucalan buruqlar
Ağ geyib cərgələndi...

ANA İTKİSİ

Anam Höküma xanımın
əziz xatirəsinə

Ana can, diz çökürəm,
Dərya yoxdur hönkürəm.
Mən Arazam, mən Kürəm,
Sən mənə dəniz oldun.

Sən axdın yer üzündən,
Nəvən öpdü üzündən.
Köçəndə də izindən,
Su çıxdı, kəhriz oldun.

ANA DÜŞÜNÜR

Gecə keçib yarıdan,
Ana baxır barıdan –
Deyəsən nigarandır,
Bir az övlad sarıdan:

– Qurbanam boy-buxuna,
Bənzəmə bir çoxuna.
Bir sevimli, kamallı
Qız girəydi yuxuna.

Göydə bulud ağ çətir,
Yerdə gül saçır ətir.
Gözləyirəm, o qızı
Anana gəlin gətir...

KÖRPƏ VƏTƏNDAŞA

De, nə vardır dünyada
Ana südündən təmiz.
Doğulduğun torpaqdan,
Olduğun evdən əziz?!

Dünyada gözəl nə var
Uşaq dünyası kimi,
Bir yaz axşamındakı
Ana laylası kimi?

Dünyada siz göstərin
Elə bir övlad hanı
Unutsun öz elini,
Doğulduğu komanı?

Kim sevmir uşaqlığın
Əlçatmaz dünyasını
Demək, duymayır əsla
Həyatın mənasını.

Uşaqlığım əlimdən
Uçdu kəpənək kimi,
Ah, onun arxasınca
Göndərdim öz qəlbimi.

Bəlkə tutub qaytara
Uşaqlıq illərimi –
Anam yenə oxşaya
Qıvırcıq tellərimi...

EKİZLƏR YOL AYRICINDA

Hamımıza,
Sevinc verdi yaz səhəri
Bir atanın,
Bir ananın əkizləri.

Ana südü,
Nazlı balınc, qoşa beşik.
Gülşad eyvan,
Yaşıl bağça, o ev-eşik...

Hər nə varsa,
Ekizlərin malı oldu.
...Vaxt yetişdi
Onlar daha yaşa doldu.

Pillələri,
Bir qalxdılar, bir endilər.
Bir biçimdə
Geyindilər, keçindilər,

Bir-birindən
Seçilmədi baxışları.
Bir gəzdilər,
Enişləri, yoxuşları.

...Bu atanın,
Bu ananın bir eybi var.
Bir səpgidə
Böyümədi bu uşaqlar!

Aylar keçdi,
Vaxt ötüşdü, il dəyişdi.
Bir mənzildə,
Onlar tamam ikiləşdi.

Ürəkləri,
Ha qırıldı, ha calandı.
Fikirləri,
Arzuları haçalandı

Selə düşmüş
Yarğan kimi yeyildilər.
Elə bil ki,
Bir ananın deyildilər.

Biri elin,
Ürəyinə tel bağladı.
Biri qərbin,
Yad könlünü varaqladı.

... İndi durub,
Düşünürük onları biz.
Qarşımızda
İki ögey – iki ekiz.

* * *

Biri ipək...
Biri tamam ayrı canda.
Böyük dərddir! –
Ekizlər yol ayrıcında!..

ÖMÜR YOLLARI

Əqrəblər fırlanır.... əriyir gecə,
Qəlbim həkk olunur ağ varaqlara.
Ömrümdən bir yarpaq dərib gizlicə,
Bu gün də çəkilir lap uzaqlara.
Bu vaxt dan sökülür... yeni bir səhər,
Qoynunda sevimli şirin nəğmələr.
Ömür yollarıma səpib gül-çiçək,
Mənə "buyur" deyir gülümsəyərək.

Deyirəm, ömrümdən keçsə də illər,
Sabaha getsəm də əlimdə əsa.
(Keçdiyim yollara baxaydı ellər,
Axı yaşamaram ellər olmasa).
Mən nəfəs dərərək çevrilib geri,
Süzərək keçdiyim ötən günləri,
Həyat dil açaraq deyəydi birdən:
– Xeyirxah əməllər carçısısan sən.

Kim bilir, bəlkə də elə o zaman,
Başıma toplaşıb gələcək nəsil.
Könül dəftərimin varaqlarından,
Fikrimi, hissimi biləcək nəsil.
Baxıb alnımdakı qırışıqlara,
Gözümdə parlayan saf işıqlara.
Ömür yollarını duyub dərindən,
Bərk-bərk tutacaqlar öz günlərindən...

NEFT

Neft –
bütün yer üzündə,
bir əbədi həyatdır...
Neft –
uçan raketlərə
qırılmayan qanaddır.

Neft –
əsrin sürətidir,
paytaxtımın işığı.
Neft –
doğma Abşeronun,
gözəllik yaraşığı.
Neft –
ağ tüldür, ipəkdir.
gözəllərin əynində,
gülü çiçək-çiçəkdir.
Neft –
yüz milyon çıraqlı
Bakının çələngidir.
Neft –
dalğalı Xəzərin
ən güclü pələngidir.
Neft –
bulaqlar, bulağı
gur çayların çayıdır.
Neft –
sahilsiz dəryadır,
Xəzərin öz payıdır.

Qayna, "qara qızıl"ım,
Damarımda qayna sən.
Gecələrə ulduz ol,
Gündüzlərə ayna sən.
Səni dəfinələrdən
Çıxaran igidlərə;
Alqış!
Alqış deyirəm,
Min kərə, milyon kərə!..

SÜLHÜN SƏSİ

Sülh! Bu səsdə həyat var,
Çünki minlər, milyonlar
Könül vermiş bu ada.
Sülh şirin bir arzu tək,
Üç rəngli bayrağım tək,
Müqəddəsdir dünyada.

Sülh deyəndə hər zaman,
Yurdumuzda canlanan
Təbiəti görürəm.
Sülh deyəndə xalqımın
Rəhbərə bəslədiyi
Məhəbbəti görürəm.

Sülh – həyatın mənası,
Anaların laylası.
Körpələrin səsidir!
Sülh-ağ saçlı dünyanın,
Milyon-milyon insanın
Həqiqət nəğməsidir!

QOL ÇƏKİRƏM

Yurdum xalqlar dayağıdır,
Azadlığın bayrağıdır.
Səsləyərək kainatı,
Sülhə doğru yol çəkirəm,
Mənə verin bəyanatı,
Qol çəkirəm,
Qol çəkirəm!..
Dünya bilir hünərvərəm,
Al şəfəqli bir səhərəm.
Keçirdikcə hər saatı,
Həm becərir, həm əkirəm,

Mənə verin bəyanatı,
Qol çəkirəm,
Qol çəkirəm!..
Qarşımızda nurlu səhər,
Bizimkidir şanlı zəfər.
Zəhmətimlə şən həyatı,
Qurub, gün tək nur tökürəm,
Mənə verin bəyanatı,
Qol çəkirəm,
Qol çəkirəm!..

AQİBƏTİN CIĞIRLARI

Mən gümraham!
Yoxdur qayğım.
Ağ dalğalar ağ qayığım.
Zirvələrə hökm edirəm.
Mən gümraham,
Mən gedirəm –
Lap kosmosda ziyafətə.
Ağzı nədir şimşək ötə.
Meyli varsa Ay buyursun,
Məclisimdə bardaş qursun.
Mən gümraham, mən sağlamam,
Məni belə doğub anam.
Yer üzündə yaxşı nə var
O mənimdir,
Ey insanlar!
Daşdan yumşaq versələr də,
Parçalaram
Didə-didə
Dişim mərcan, mədəm də ki,
Nə yük bilir,
Nə də çəki...

...Yaş qartaldı,
Dərd ciyərə sütül vaxtı
Xallar saldı.
Daraqları axşam-səhər.
Qıvrımında,
Qıran saçlar
İndi dalğın, indi seyrək,
Bu sirri biz kimə deyək?
Necə, necə, lap özümə?

Bir diqqətlə
Bax üzümə.
Mən gümraham, mən igidəm.
Xəstəliyi verin bircə,
O iblisi mən gizlicə
İstəyirəm özüm didəm.
– Kim verəcək onu sənə,
O ki artıq canındadır?
Sən kefində, öz hayında.
Osa ürək çarpayında
Baş yastığa qoyub yatır.
– Ola bilməz.
– Yox, elədir.
Varlığında zəlzələdir.

...Gümrah bədən ləngər vurdu.
Baş gicəldi,
Ayaq durdu.
Diz taqətsiz, üz sapsarı.
Xəzan vurdu ilk bahara...

Dörd bir yanı ala-toran...
Baxışında seyrək duman
Kirpikləri güclə qalxır.
Çarpayıya tərəf baxır, –
Ağ xalatlı neçə həkim.
Gündüz həkim,

Gecə həkim.
Qalxıb-enir töyşər sinə.
Taqəti yox,
Kəlmə dinə.
... "Mən gümraham!" hanı o səs?
Xır-xır sinə,
Zəif nəfəs.

"Mən gümraham!" – deyə-deyə
Can çürüdüb, düşdün küyə.
Çiçəklənən dövründə bax,
Dönüb oldun
Boz qamqalaq.
Ey "gümraham" deyən gənclər
Belə gedib
Canlar hədər.
Min yaşasın həkimləri,
Çəkib sizi üzü bəri.
Bilin, bilin doğma, əziz,
Həkimlərin
Qədrini siz!

DURNA QATARI

Bakının "Moskva" prospektindəki işıq karvanına

Uçur, uçur
Haça qatar durnadır.
Qanadı nur,
Teli par-par durnadır.

Nə el yalqız,
Nə "Vidadi xəstədir".
Qatarınız
Montin yolu üstədir.

Səf-səf süzün
Yaraşıqlar içində.
Bir də üzün
Gur işıqlar içində.

Bir oxsunuz,
Sürətiniz burdadır.
Siz çoxsunuz,
Bakı – ana durnadır.

Uçun-uçun
Gözü büllur durnadır.
Qəlbi coşqun
Lələyi nur durnadır.

İNSAN NƏFƏSİ

Sonsuz fəzalara şahin şığıdı,
Gördü ki, yer ondan çox aşağıdı.

Dolandı neçə yol ərzin belinə,
Ülkər sağ əlini çəkdi telinə.

O duydu, ulduzlu göylərdə də tək,
Yalqızlıq içində sıxılır ürək.

Səhər bir "şahin"də qalxdı yanına,
Xəfif bir istilik keçdi canına.

Düz üç gün, üç gecə beləcə onlar,
Dünyanın başına bir dolandılar.

İnsan nəfəsinin gücünə bir bax,
Göydə də insanı insan isidir...

MƏN KÖVRƏLMİŞƏM

Nur içində üzür ürək,
Ay sularla öpüşəndə.
Bu sahildə həsrətlitək,
Arazla Kür görüşəndə
Mən kövrəlmişəm.
Seyrana çıx, sahilə bax,
Gəl baş vuraq dərinliyə.
Çox çətindir tək yaşamaq,
Heç bilmirəm bu gün niyə
Mən kövrəlmişəm.

YAŞIDLAR

İki həmyaş,
Yavaş-yavaş
Qalxıb sülhü salamladı.
Heç bir kəsə bəlli deyil,
Onun adı, bunun adı.

Şəfəq endi...
Cilvələndi
Gözlərinin şüşəsində,
Biri start meydanında.
Biri Xəzər meşəsində.

Güldü sabah,
Arzuya bax;
Gör nə duyub, yanır hərə?
Tərlan kimi şığıyacaq
Biri göyə, biri yerə.

Anlar axır...
Onlar baxır,
Nə mavidir dəniz suyu!
İndicə kəşf ediləcək,
Kosmik fəza, kosmik quyu.

MÜƏLLİM

Müəllim! Bu sözün mənası dərin,
Onun hər ürəkdə öz yeri vardır.
Odur ilhamçısı gənc nəsillərin,
Fikri, düşüncəsi bir ilk bahardır.

Müəllim! Bu ada min dastan desəm,
Nə sözüm tükənər, nə qəlbim susar.
Ona canımı da mən qurban desəm,
Bir şair qəlbinin buna haqqı var.

Ağsaçlı, mehriban müəllimimi,
İndi də arabir hərdən görürəm.
Özümü itirib bir uşaq kimi,
Ayağa qalxaraq salam verirəm.

Dünyanın ən böyük dahilərini,
Müəllim yetirmiş parta dalından.
Onun qayğısını, alın tərini,
Dostlar, unutmayaq gəlin heç zaman.

Deyirəm, görəsən cahanda kimin,
Bir müəllim təki xidməti vardır.
Dahilərə dərs deyən bir müəllimin,
Milyon könüllərdə hörməti vardır.

Onun şərəfidir, onun öz adı,
Neçə gənc mühəndis, neçə həkim qız.
Cavan pilotlardır onun qanadı,
Odur ki, göyləri gəzir qayğısız.

Müəllim! Böyükdür, yüksəkdir bu ad,
Onu uca tutmaq şərəfdir bizə.
O, öz qayğısıyla firavan, azad,
Nəsillər yetirir, ellərimizə.

Gəlin alqış deyək dostlar, ürəkdən,
Əsil müəllim tək yaşayanlara.
Şerimlə gül dəstə bağlayıram mən,
Bu adı şərəflə daşıyanlara!

DARÜLFÜNUN PİLLƏLƏRİNDƏ

Bitirib şərəflə Darülfünunu,
Mərmər pillələrlə endiyim zaman.
Gördüm bir həvəslə çıxır yuxarı,
Onillik məktəbi qurtaran oğlan.

Dedim ki: – Enirəm sizi, pillələr!
O isə təzəcə qalxır yuxarı.
O da mənim kimi, keçdikcə illər –
Belə şən dönəcək həyata sarı.

Bir vaxt tələbə tək qalxmışdım mən də.
İndi müəlliməm gedirəm artıq.
Bu gediş, bu gəliş kəsilmir səndə,
Sinən qəlbim kimi bilmir rahatlıq.

Ana qucağını açdıqca bina,
Qoynuna bəxtiyar bir gənclik gəlir.
Səninlə qalxaraq Darulfünuna,
Elmin yollarında onlar yüksəlir.

Xoş günlər görürəm gəlişinizdə,
Gəlin ki, kamala yetsin nəsillər.
Möhtəşəm bir həyat canlanır sizdə,
Ey mərmər pillələr, mərmər pillələr...

TƏHSİL İLLƏRİ

Dostum yazıçı Əlfi Qasımova

Ey dost, sən Bakıya təzə gələndə,
İpləri ağ yundan corab geyərdin.
Uzanıb yerinə, əlində dəftər,
Payız gecələri mürgüləyərdin...

Yadına düşdükcə hərdən kəndiniz,
Xəyalın bir anlıq ora gedərdi.
Üzü günə baxan aynabəndiniz,
Səni düşündürər, düşündürərdi...

Lakin aylar keçdi, illər dolandı,
Xəyalın az gəzdi dağda, çəməndə.
Hərənin qəlbində bir arzu yandı,
Mühərrir olmağa can atdın sən də.

İndisə dönən tək otağına sən,
Yazdığın mövzuya nəzər salırsan.
Vaxtsız yuxulara aman vermədən,
Sabahın qeydinə bu gün qalırsan.

Adətdir, yaxşı dost darda sınanar,
Yüz dəfə imtahan vermişik azı.
Elmin yollarına tutaraq fənar,
Biz yola salmışıq dörd qış, dörd yazı.

Biz daxil olanda darülfünuna,
Yolumuz ağzında bir ev də vardı.
O, çox kiçik idi, baxdıqca ona,
Qəlbimiz arabir hey sıxılardı.

Lakin aylar keçdi, onun yerində,
Göylərə baş çəkən saray quruldu.
Bir bahar fəslində, günün birində,
Üstünə rəngbərəng naxış vuruldu.

Məktəbə gələndə, ey əzizim, sən,
Xeyli kiçik idin, o evciyəz tək.
İndi ucalmısan, düzünü bilsən,
Böyükdür səndəki düşüncə, ürək.

Səni bu kamalda görəndə düzü,
Səmimi dost kimi sevinirəm mən.
Gəl elmə bağlayaq öz könlümüzü,
Dörd ildə nə qədər dəyişilmisən!

Söylə, yadındamı, hər pul alanda,
Yaxşı düşməsə də deyirəm bunu.
Gedib soruşmazdıq yeməkxanada,
Xörəyin bahalı, ucuzluğunu.

Ah... Təhsil illəri, təhsil illəri...
Yenə əzizsiniz öz canım kimi.
Mən sizi duyduqca ürək telləri,
Coşub-dalğalanır ilhamım kimi.

Naxçıvan çayının göy vadisində,
Şəkərabad kəndində doğulmuşam mən.
Gözəl Qarabağın bir guşəsində,
Ey dostum, həyata göz açmısan sən.

Lakin öz qəlbimiz, öz amalımız,
Bizi bir məsləkə bağlamış artıq.
Elmə doğru uçan quş xəyalımız,
Nə gecə, nə gündüz bilmir rahatlıq.

Görürəm mən səni illər dalında,
Bir alim, mühərrir sifətində bax.
Qardaş millətlərin birlik zalında,
"Sülh" – deyə coşursan, alovlanaraq.

Görürəm mən səni, sevimli dostum,
Birgə baş çəkirik vətənimizə.
Deyirlər: – Bu oğlan bir tələbəydi,
Bu gün alim kimi dərs deyir bizə!

Bəli, bu olacaq, bu deyil uzaq,
Hələ yol gedirik o şanlı günə.
Odlu bir ilhamla alovlanaraq,
Xeyir verəcəyik Vətən mülkünə.

Ey dost, unutma ki, Darülfünunun,
Yolu gur işıqlıdı – elmə tərəfdir.
Yuxusuz gecələr keçsə də, onun
Adını doğrultmaq bizə şərəfdir.

YATAQXANA

Öz evindən, öz kəndindən xeyli uzaqda,
Tələbələr mənzilində heç olmusanmı?
Öz həmməktəb dostlarınla sadə otaqda
İllər boyu qərar tutub sən qalmısanmı?

Duymusanmı tələbəlik həyatındakı
Yaxşı günü, çətin günü, söylə, ey cavan?
Səni gümrah böyütdügcə sevimli Bakı,
De, yadına heç düşübmü mehriban anan?

Bəzən dilsiz gecələrdə girib yerinə,
Yuxu basıb, döşdə dəftər yatmısanmı sən?
Əla qiymət almaq üçün alın tərinə,
De, imtahan zamanları batmısanmı sən?

Yuxuda hərdən soyuq payız gecəsindəki,
Mübahisə saatınız çəkibmi üçə?
Döyüşlərdən qalib çıxmış qəhraman təki,
Rahat olub yatmısanmı, söylə, o gecə?

Mən özüm də dörd ildir ki, bu minval ilə,
Çox qalxmışam bu binanın pillələrini.
Qələm tutub, şairanə bir xəyal ilə,
Yaratmışam gəncliyimin lövhələrini...

Bəzən bütün yataqxana uyuyan zaman,
Təkcə mənim otağımın işığı yanmış.
İş üstündə görüşdüyüm neçə qəhrəman,
Gözlərimin önündəcə gəlib dayanmış.

Beş il tamam qayğı çəkən, ey əziz ana!
Tələbələr unutmamış haqq-sayını.
Kim tərk etmiş məndən qabaq bu çarpayını?
Söylə görüm, söylə görüm ey yataqxana,

Bəlkə, o gənc geoloqdur dağlar içində?
Bəlkə, indi müəllimdir, kənddə dərs deyir?
Bəlkə qoca Miçurin tək bağlar içində,
Ağaclara sənətilə yeni can verir?

Bəlkə elmi əsərini o qurtararaq,
Vaqif olur fəlsəfənin dərinliyinə?
Bəlkə, cavan bir şairdir, fikrə dalaraq,
Yurdumuzun cəlalına söz qoşur yenə?!

Yataqxana, aylar gəlib, illər getsə də,
Gül açacaq ürəyimin bu xoş niyyəti.
Unutmaram, unutmaram yüz il ötsə də,
Sənin ana qoynundakı səmimiyyəti...

EY QAPIMI DÖYƏN İL

Ey qapımı döyən il,
Səni görməsəm də mən,
Gül dəstə bağlamışam
Sənincin qar gülündən.

Ləpir salıb qar üstə,
Düz qapıma gəlmisən.
Evimdəki qonaq tək,
De, sən də gözəlmisən?

Hələ köhnə ilimiz,
Süfrənin başındadır.
Ömrü bir il olsa da,
Özü yüz yaşındadır.

Yüz arzu, yüz xəyalı,
Çatdırdıqca o, başa.
Neçə şoran düzəni,
Bəzəmişdir qumaşa.

Onun qısa ömründə,
Neçə şaxta qazılmış.
Dövlətinin ən gözəl,
Qərarları yazılmış.

Saçına dən düşsə də,
Əməlləri cavandır.
Ey qapımı döyən il,
Qonağım mehribandır.

Onun saldığı kəndlər,
Şəhərlərlə yarışır.
Baxıb bu xoş ülfətə,
Günəş ayla barışır.

Gəl, yaxın gəl, təzə il,
Köhnə il yol üstədir.
Kiçik övlad həmişə,
Özünü çox istədir.

Tez ol, bu son gecənin,
Parolunu söylə sən!
Əqrəblər qayçı tutmuş,
Son təqvimə deyəsən.

Saniyələr damcı tək,
Yerə düşməmiş donur.
Yağan qar pəncərəmə,
Kəpənək kimi qonur.

Bütün cahan bir anlıq,
Nəfəsini saxlamış.
Öz buz dodaqlarilə,
Nəfəs almır qarlı qış.

Şaxta çaylar üstünə,
Naxışlı şüşə salır.
Uzaq yollar qısalır,
Saniyələr daralır.

Zamanın ovcundadır,
Bu gecənin ürəyi.
Dəyir nəfəsimizə,
Yeni ilin küləyi.

Açılır Vətənimin.
Geniş darvazaları.
Yeni il daxil olur,
Əlində sülh baharı.

Badəmizi içirik,
Onun sağlığına biz.
Daha da gözəl olsun,
Qoy bu azad ölkəmiz!

ADSIZ ZİRVƏ

Çiynində qara mərmər,
Neçə igid,
Neçə ər,
Dağlara dırmanırdı.
Zirvədə buz bülluru,
Ətəkdə od yanırdı.

Aşıb aşırımları,
Büdrədilər,
Qalxdılar.
Bu dəmir çarıqlılar,
Bu kəndir qurşaqlılar.

Bu yükü mərmərlilər,
Deməyin,
Töküldülər.
Ox kimi dartıldılar,
Yay kimi büküldülər.

Adsız zirvə, qürurlan!
Bulud dağıt,
Göyü əz!
Səni fəth eləməyə
Hər ürək tab gətirməz!

...Neçə oğul itirdi
Bu pilləsiz
Sıldırım.
Gədiyi yağış döydü,
Sərt zirvəni ildırım.
Əl-ayaqdan düşənə
Göy qurşağı
Gülüşdü.
Bu hünər meydanında
Yüzlər əlliyə düşdü.

Payız səması kimi
Boşaldılar,
Doldular,
Bir az da seyrəldilər,
Amma yorulmadılar.

Buzlu zirvələr üstdə
Yurdumun
Oğulları
Qələbə əzmi ilə
Üz tutdular yuxarı.

Bir adsız körpə kimi
Adsız zirvə
Sevindi.
Səcdə edib onlara,
Qızıl günəş də endi.

Qartallar keşik çəkdi,
Onların dövrəsində.
İgidlərsə dayandı,
Zirvələr zirvəsində...

İLİN SON GECƏSİ

İlin son gecəsi...
Bayırda şaxta, qar.
Lakin ürəklərdə bahar.
Qocalır yer kürəsi,
Solur vələs yarpağı tək.
Son ilin son gecəsi.
Dəqiqələr qurğuşun kimi
əriyir.
Köhnə il son mənzilinə doğru
yeriyir.
Bakı bir badə kimi
Xəzəri qaldırmada.
Abşeron –
nurlu bir yarımada.
Evlərdə yolka, şənlik...
Bayırda sərt rüzgar,
Sevən ürəklərdə bahar.

İlin son gecəsi...
Əqrəblər qayçı kimi
Bir-birini kəsmədə.
Dəniz buruqlarında
sərt bir xəzri əsmədə,
dalğalar dağ gövdəli.
Bəzəməkdə sevimli Bakımızı
dahi Nizamimizin
əzəmətli heykəli.
Odur, bağdan aralı
yaraşıqlı bir bina.

Öz şən körpələriylə
oturmuş ana.
Lakin əri gəlməmiş
dəniz buruqlarından,
Yeni ili iş üstə
qarşılayır o insan.
Qırılır şüşə kimi
ayağı altında buz,
Lakin onu isidir
döşündəki ulduz.
Usta dənizdədir
qağayı kimi.
Dalğalar qalxıb – enir
kələğayı kimi.
Ağaranda dan yeri,
Usta qayıdır geri.
Lakin sözsüz duyuruq,
Gözündən oxuyuruq.
Yeni ilə töhfədir,
Onun saldığı buruq!

SƏS

"Ağacı qurd içindən yeyər..."
Atalar sözü

– Doğranacaq meşələr!
Bu səs hər yerlə axdı.
Hürküb körpə ağaclar,
Qoca palıda baxdı.

Sardı bütün meşəni,
Bir vahimə sükutu.
Palıdın qol-budağı,
Parçaladı buludu.

– Doğranacaq meşələr!
Nalə etdi fidanlar:
– İçimizdən kiminsə,
Yəqin orda əli var.

Salxım söyüd ələstü,
Tez özünü yetirdi.
Meşənin kənarından
Belə xəbər gətirdi:

– Mən nə görsəm yaxşıdır,
Xəyanətə baxın bir:
Bizi kəsən baltanın
Sapı bu meşədəndir!

OĞLUMA

Ayaq tutub gəzdikcə sən,
Qəlbim gülür sevincimdən.
Səni basıb bağrıma mən,
Deyirəm ki, oyna, bala,
Qurbanam boyuna, bala!

Bir-birindən xoş gəlir il,
Ürəyimdə yoxdu nisgil.
Göz muncuğu gərək deyil,
Yalan sözdür nəzər, bala,
Ey özümə bənzər bala!

Yetişmişəm hər kamıma,
Vurulmuşam dövranıma.
Mən də körpə İlhamıma,
Deyirəm ki: – Sevin, bala,
Bəzəyisən evin, bala!

YOX, DEMƏYİN DOLU VURDU

Göylər tutqun, göylər qara,
Mən baxıram buludlara.
Bir tozanaq qalxdı birdən,
Göy gurladı neçə yerdən.
İldırımlar çaxdı keçdi,
Sellər, sular axdı keçdi.
Gah sağı, gah solu vurdu.
Dolu vurdu!
Dolu vurdu!

Aynabəndlər örtülsə də,
Neçə yerdən aldı zədə.
Tər lalələr xəzan oldu,
Şəlalələr ümman oldu.
Dolu dəydi, gül töküldü,
Novçalardan sel töküldü.
Hər döngəni, yolu vurdu,
Dolu vurdu!
Dolu vurdu!

Öz hirsini tökdü göylər...
Dolu vurmuş böyük şəhər
Elə bil son çiləsəydi.
Hər yarpağa gullə dəydi.
Bağ-bağça qübar eylədi,
Yaxasını düymələdi.
Vurdu, neçə kolu vurdu,
Dolu vurdu!
Dolu vurdu!

Hirsi yatdı, susdu göylər,
Nəfəs aldı qoca şəhər...
Günəş yardı buludları,
Salamladı göy otları.

Biçənəklər üzə güldü,
Nərgizlər göz-gözə güldü.
Bağlar yenə büsat qurdu,
Yox, deməyin
Dolu vurdu!..

LAÇIN DAĞLARINDA

Sürücü, başına dönüm, asta sür,
Qoy gözüm doyunca yollara baxım.
Odur, çapıq qaya çənə bürünür,
Mən də duman olub dərədən axım.

Otlayır sürüsü göy yaylaqların,
Durmuş şiş qayalar çobansayağı.
Qurbanı olduğum qarlı dağların
Üşüyür zirvəsi, yanır ayağı.

Dərədən iti keç, dolaydan asta,
Qoy səhər küləyi dəysin alnıma.
Odur, moruq yığır qızlar yol üstdə,
Birisi bənzəyir öz nişanlıma.

Sürücü, gəl əylə maşını bir az,
Qoy Laçın yoluna baxım doyunca.
Dilbər təbiətdən usanmaq olmaz
Məxmər xalı salıb döşlərə yonca.

Əyilib su içim "Güllü bulaq"dan,
Baxım kirəmidli təzə evlərə.
Neçə kənd görünür "Əyri dolaq"dan,
Qoy baxım, keçirəm bəlkə son kərə!..

Sür ki, "Yeddi qardaş" dolayından biz,
Bir də burum-burum burulub keçək.
Sür, artıq Turşsudan görünmür bir iz,
Sür, təzə yerlərə vurulub keçək.

Xoşdur, bu torpağın xoşdur iqlimi,
Səsim dağa düşsün, dərəyə düşsün.
Qoy sözüm ən incə təranə kimi,
Ürəkdən süzülüb ürəyə düşsün.

Sürücü, maşını burda saxla bir,
Vərəqdə gəzdirim mən söz fırçamı.
Təbiət laləyə süzüb göndərir,
Mənə həyat camı, məhəbbət camı.

Qoy içim yurdumun gül badəsini,
Bunda dağlarımın bahar ətri var.
Eşitsin oğlunun şeir səsini,
Başı ağ çalmalı silsilə dağlar.

Sürücü, başına dönüm, asta sür,
Meşəli yollara doyunca baxım.
Sür ki, dağlar gəlir, ellər görünür,
Sür, ana torpağa doyunca baxım...

GƏLİN – AĞ BİR QAĞAYI

Xəzri suları döydü,
Gur dalğalar yoruldu.
Axşam "Neft daşlarında"
Gözəl bir toy quruldu.

Gəlin – ağ bir qağayı,
Bəy-qranit bir qaya.
Əziz dostlar, tanışlar
Axıb gəldi bu toya.

Əfsanəvi adada
Bəlkə də ilk dəfədir –
Neftçi oğlan, neftçi qız
Belə qəşəng toy edir!

Ay göylərdə dolanıb,
Səpir gümüşü bir nur.
Ulduzlar göy sularda,
Sona kimi yuyunur.

Qızıl balıq istəsən,
Lap dənizdən en gətir.
Bu qağayı gəlinə,
Qağayılar yengədir.

Xəfif meh sağ əlini,
Çəkdi bəyin telinə.
Qara neft ağ ipəkdən,
Tül geydirdi gəlinə.

Gəlin – ağ bir qağayı,
Bəy – qranit bir qaya.
Ulduzlar karvan çəkib,
Axdı gəldi bu toya.

Elə bil min könüldən
Göy yerə aşiq oldu.
Bəyin qazdığı quyu,
Toya yaraşıq oldu...

ŞƏHRİYARIN DÜŞÜNCƏLƏRİ...

Varağım yox, ürəyimi bükməyə,
Dərya verin, göz yaşımı tökməyə.
Dərdlərimi ilmə-ilmə sökməyə,
Milyon iynəm olaydı.

Yaxşın çoxdur, ana yurdum, pisinəm,
Saray əhli hücrə vermir isinəm.
Parçalanmış vətən dərdli bu sinəm,
Göynəm-göynəm olaydı.

Arazım var, yelkənim yox üzməyə,
Torpağım var, haqqım yoxdur gəzməyə.
Bu hicranın həsrətinə dözməyə,
Tablı sinəm olaydı.

Yadımdadır ilk vüsalın öpüşü,
Nə müşküldür cüt qardaşın görüşü!
Kaş yurdumun hər yaralı qarışı,
Bir dəfinəm olaydı...

İL YARASI

Rəvayət

– Səfərə gedirəm! –
O dindi kövrək.
– Nə olar.
– Səndən bir ricam var ancaq.
Mən həmin səfərdən qayıdanadək
Deyəsən, uşaqlar sizdə qalacaq.
– Belə gözüm üstə, lap arxayın ol!
– Hə, onda mən gedim...
– Sənə yaxşı yol!..

...Dost dosta bir külfət tapşırıb getdi,
Bir namus, bir qeyrət tapşırıb getdi.
Balanı balatək əzizlədilər,
Dostluq axarını təmizlədilər.
Günlər mərcan kimi sapa düzüldü,
Ayların cilovu əldən üzüldü...
Bir gün o qayıtdı uzaq səfərdən,
Arvadı yeriyib
Tutdu yəhərdən...
Uşaqlar atanı qucaqladılar,
Töhfəlik nə gəlsə tez pay-puş olar.
O dostun, bu dostun arvad-uşağı
Gah evə yüyürdü,

Gah da aşağı...
...Dostlar görüşdülər, əhval tutdular:
– Necəsən?
Belə də yubanmaq olar?
Uşaqlar bir yana, mən darıxırdım.
Hər gün dolaylara dönüb baxırdım.
– Neyləyim, işdi də?..
Gəzirəm düzü,
Səyyahlar heç sevməz dumanı, sisi...
– Bir de görüm sən,
Uşaqlar razımı qalıbdı məndən?
O səyyah bir anlıq durdu pürvüqar:
– Arvadın üzündə "il yarası" var.
Niyə görməmisən bu neçə vaxtdı?
...O dönüb dostuna heyrətlə baxdı:
– Söylə düzünü,
Bu uzaq səfərə getdiyin zaman,
Onun namusunu, yoxsa üzünü
Həqiqi dostuna sən tapşırmısan?!

ALA GÖZLÜ BİR TAKSİ VAR

1

Bir əl qalxdı, taksi durdu,
Şofer dönüb baxdı ona.
– Hara sürüm?
– Sür bu yana!
O, sükanı yana burdu.
Şofer bildi öz işini,
Tez tanıdı sərnişini.
Tanış zavod, Qaraşəhər,
Göyə qalxdı göy tüstülər...
Yaşıl taksi axıb getdi.
Şimşək kimi çaxıb getdi.

2

Bir səs gəldi,
– Saxla görüm!
– Hara sürüm?
– Sür dağüstü şəhərə sən,
Yatmamışam səhərəcən.
Bu gün təhvil verəm gərək,
Yol üstdəki üç binanı.
Şofer baxdı sevinərək.
– Doğru sözdür, düzdür yanı?
Bu mənzilin orderini,
Döş cibimdə gəzdirirəm.
Ah, xoşbəxtəm, bir gör kimi
Maşınımda gəzdirirəm...
Yaşıl taksi axıb getdi,
Şimşək kimi çaxıb getdi.

3

Doğum evi, yaşıl küçə...
Bir səs gəldi;
– Saxla bircə!
Gül-çiçəyə bata-bata,
– Buyur – dedi cavan ata.
Gözəl gəlin, əkiz uşaq,
Taksi təmiz, yeri yumşaq...
– Sür, ay şofer!
– Sür, ay şofer!
Qibtə etdi subay şofer.
Yaşıl taksi axıb getdi,
Şimşək kimi çaxıb getdi.

4

Ağ qəndillər saçaq-saçaq...
Əllər qalxdı:
– Tez ol, qoçaq!

– Tez sür!
– Hara?
– Qismət olsun subaylara!
Toyumuz var. Tez ol, əyə!
Gedək gəlin gətirməyə.
Çox olsa da taksi, filan,
Lap birinci dayanarsan!
Bəndənizin özü bəydir.
Bizim əziz,
Gəlinimiz
Bu maşında gələcəkdir!
Yaşıl taksi axıb getdi,
Şimşək kimi çaxıb getdi...

5

O, sürdüyü yerdə yenə,
Bir göz dəydi gözlərinə.
Əli əsdi, qolu əsdi,
Çaşıb tamam yolu kəsdi.
Ləngitsə də yüz maşını
Döndərmədi heç başını.
Bunu görcək tələsdi qız,
Tez oturdu ixtiyarsız.
– Yolu kəsmə, tez sür sola!..
Maşın getdi...
– Uğur ola!
Uğur ola, sevə-sevə
Hələ subay yaşayana.
Uğur ola bir maşında,
Bir şəhəri daşıyana!
Yaşıl taksi axıb getdi,
Şimşək kimi çaxıb getdi...

ZAQS MÜDİRİ

Bizim ZAQS müdirimiz
Evlənmək üçün əsir;
Özünə umac ovammır,
Xalqa əriştə kəsir.

İşi kəbin kəsməkdir,
Özü subay dolanır.
Qızlar ərə getdikcə,
Odsuz-ocaqsız yanır.

ZAQS idarəsindən
O baxdıqca qızlara.
Tamahından az qalır,
Gözləri də qızara.

Nə olsun ki, bir qədər,
Kasıbdır boy-buxundan.
Ancaq dildə-ağızda,
Dövlətlidir çoxundan.

Qadın var ki, istəyir,
Kişi dilavər olsun.
Qadın var ki, fərqi yox,
Təki elə ər olsun.

Qadın var ki, sir-sifət,
Onun üçün əsasdır.
Bizim ZAQS müdiri də
Bu sarıdan həssasdır.

Elə ona görədir
Dəlləklər gəlib cana.
Moda atelyeləri
Sanki işləyir ona.

Gah qalife geyinir,
Gah qabardin, gah "Metro".
Tanış-biliş qızlara
Təki gözəl gəlsin o.

Bu gün bəyəndiyi qız,
Sabah nişanlı çıxır.
Yaman dərddir subaylıq,
Təklik qəlbini sıxır.

Bu yerlərə gələli,
Deməyin ki, dərd edir.
Ev-eşik də düzəldib,
Dərdi novruz dərdidir.

Hərdən özünü kəndin
Klubuna toxuyur.
O, evlənmək haqqında,
"Mühazirə" oxuyur.

Eynəyinin altından,
Elə baxır ki, hərdən –
Dərdli olsan o dəmdə,
Boğularsan qəhərdən.

Subay qızların da ki,
Qəlbindən çox şey keçir.
Bizim ZAQS müdirisə
Hələ qız seçir... seçir...

QIZ İŞIĞI

Gecələr şam kimi
Əriyib keçir...
Beşikdəki gül balam
Ömrümün çiçəyidir.

Laylalar
Yayılar,
Yatmaz analar...

Üzə bax,
Gözə bax,
Yerdəki ulduza bax...
Gül qıza bax.
Körpə qızım, bir sözə bax:
Nabatlar şirin olar,
Övladlar şirin olar,
Bəzəyim, yaraşığım,
Ey qız işığım.

Gözlərin güləndə
Nərgizlər gülər.
Gül üzünün nurundan
Dan şəfəqi söküler,
Dur, qızım,
Nur qızım,
Tale ulduzum...

Gün keçər, il keçər,
Sən böyüyərsən.
Zərrin taclı göylərin
Qapısını döyərsən,
Duzlu qız,
Nazlı qız,
Qəlbi nazlı qız...

XANƏNİŞİN

O, evdən tərpənmədi,
Qapıları bağladı.
Özü boş bir nağara, –
Özgəni varaqladı.

Pəncərə gözlüyündən
Hərdən hava uddu o.
Həyatın nəfəsini
Büsbütün unutdu o.

Neçə qələm əhlindən
Neçə yüz calaq etdi.
Ürəyində hamıya
O, kəm baxdı, lağ etdi.

Piy basmış böyrək kimi
O öz yağında bişdi.
Bizimlə bir olsa da
Bizdən uzağa düşdü.

Bütün ili sərasər,
Əsə-əsə əlləri
Yazıb, pozmaq istədi,
"Nadir sənət əsəri".

Şəhərdəsə küçələr,
Meydançalar boy atdı.
Milyon nəfəsli Bakı
Dan yerini oyatdı.

İnsan göylərə uçdu,
Şoranlar bəhrə verdi.
İnsan axar çayların
Məcrasını çevirdi.

Bizim xanənişinsə
Qapanıb evdə qaldı.
Özü kimi qartıyıb
Yazdığı da qocaldı.

MAY GƏLİR

Məxmər tellərini darayır bahar,
Sıldırım daşlardan axır şəlalə.
Ağ cuna örtsə də başına dağlar,
Quzeyi yarpızdı, güneyi lalə.

Mayın müjdəsini yetirir bizə,
Bahar qaranquşu, bir də bənövşə.
Nərgizlər boylanır baxır göz-gözə,
Oxuyur qumrular, səslənir meşə...

Nə xoşdur, dan yeri ağaran zaman,
Günəşi gül kimi taxaraq döşə;
Keçib küçələrdən, yollardan bir an,
İlk dəfə çıxasan sən nümayişə.

Nə xoşdur, may günü deyib gülәsən,
Baxıb vurulasan bu şən növrağa.
Saz çalıb, söz qoşub, şeir deyəsən,
Bizim göy ətəkli Qızıl bayrağa.

Nə xoşdur, may günü çıxıb çöllərə,
Məclis düzəldəsən, süfrə açasan.
Mehlər toxunduqca qara tellərə,
Onun qanadında qalxıb uçasan.

Çox tərif etmirəm yurdumuzu mən,
Bir gəl bu büsata bax öz gözünlə.
Gəl gülərüzlü may, gəlişinlə sən,
Yurduma xoş bahar gətir özünlə.

PƏLTƏK

Özü vəznsiz adam,
Yazısı hecalıdır.
Dili ilan dili tək,
Yamanca haçalıdır.


Yeni fikir, təzə söz,
Ülvi şeriyyətindir.
Dili pəltək şairi
Oxumaq nə çətindir!

Bəzən durub düşünür,
Xəyala dalıram mən.
Ey onun həmyaşları,
Günah sizdədir deyən.

Sümüyünü bərkidib,
Qoltuğuna verdiniz.
Kif atmış bu nadanı
Şairə çevirdiniz.

Ömrünün bu yaşında
"Dostları" rəng-rəng olub.
Tərif azarı onun
Canında xərçəng olub.

Mahnıdır yelkənim əzəldən mənim



BAKI, SABAHIN XEYİR!

Qayıdıb xoş güzərdən,
Günəş qalxır Xəzərdən.
Sevgilim keçən yerdən
Bütün şəhər yeriyir.
Bakı, sabahın xeyir!

Nəqarət

Hörükləri qaradır,
Qaşları ayparadır.
O bir aləm yaradır,
Hamı ürəkdən deyir:
Bakı, sabahın xeyir!

Xumarlanır ləpələr,
Gülür mehriban şəhər,
Sevgilim səhər-səhər
Zər şəfəqdən don geyir.
Bakı, sabahın xeyir!

ANA

Könlümün nuru, canım ana,
Böyütdün sən məni yana-yana.
Odlusan gün kimi, bir qaynar həyat kimi,
Borcluyam mən sənə, sənə bir övlad kimi,
Əziz ana.

Nəqarət

Nə ki arzu kamın var,
Qəlbimdə tutmuş qərar.
And olsun sana, can ana.
Qədrini el bilir, ətrini gül bilir,
Saçının ağına, qarasına qurbanam.
Könlünün o həzin laylasına qurbanam
Əziz ana.

Beşiyim üstə layla çaldın,
Gecələr sübhədək qadamı aldın.
İsti nəfəsini həmişə yaz bilmişəm,
Olub ki, mən sənin qədrini az bilmişəm,
Əziz ana.

Niyyətin xoşdur, safdır südün,
Qulağımda qalıb hər öyüdün.
Oğluna, qızına ay etibarlı ana,
Nəfəsi gül kimi, qəlbi baharlı ana,
Əziz ana.

ARZU

Qara gözlü, şirin sözlü,
Al yanaqlı, gözəl qız.
Hər gün sizin güllü bağda
Şeyda bülbül olaydım.
Ay gözəl qız, ay qəşəng qız.
Bağçamıza gəlibsən.
Gül əlinlə gül dərəndə
Mən də bir gül olaydım.
Çoxdur sözüm, necə dözüm
Həsrətinə, gözəl yar?
Harda olsan, təmiz qəlbim
Səni deyib arzular.